AZƏRBAYCAN RESPUBLİKASI
"ZƏFƏRLİ YOL"
İCTİMAİ NƏZARƏT CƏMİYYƏTİ
№ (VÖEN) 1905707601
Tel: +994 50 898-04-66
+994 70 898-04-66

AZERBAIJAN REPUBLIC
"THE VICTORIOUS ROAD"
PUBLIC CONTROL SOCIETY
www.zeferliyol.com
E-mail: zeferliyol@gmail.com

**№007/a**
**04.09.2023**

**LƏNKƏRAN RAYON**
**İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI**
**CƏNAB QARAŞOV TALEH AZAY OĞLUNA**

**Hörmətli Taleh Müəllim!**

Məlumat üçün sizlərə bildirmək istəyirəm ki, **"ZƏFƏRLİ YOL 2023"** ictimai nəzarət cəmiyyəti İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Gəlirlər Baş İdarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsində qeydiyyat nömrəsi ilə Dövlət qeydiyyatına alınmışdır.

Biz, **"ZƏFƏRLİ YOL 2023"** ictimai nəzarət cəmiyyəti olaraq,Azərbaycan Respublikasının müstəqil dövlətçiliyini,milli marağı və inkişafını dəstəkləyən bir təşkilat olmaq məqsədi ilə fəaliyyət göstəririk.Cəmiyyətimiz,ölkəmizin inkişafına və sosial iqtisadi sahələrdə olan fəaliyyətinin təkmilləşdirilməsinə böyük tərəfdaşlıq edir.

Bundan əlavə olaraq, **"ZƏFƏRLİ YOL 2023"** ictimai nəzarət cəmiyyətinin idarə heyyitinin № 002/a nömrəli qərarı ilə 09.08.2023-cü ildə **www.zeferliyol.com** online informasiya agentliyi təsis edilmişdir.İnformasiya agentliyini təsis etməkdə məqsədimiz dünyada və ölkədə baş verən ən vacib və maraqlı xəbərləri geniş auditoriyaya təqdim etməkdir.Azərbaycan və ingilis dillərində,ölkədə və dünyada baş verən,ən aktual və maraqlı hadisələr barədə operativ xəbərlər,oxucuları və cəmiyyəti maraqlandıran suallara cavablar,analitik məqalələr,foto və videohesabatlar hazirlamaqdır.
Azərbaycan Respublikasının Prezidenti,Ali Baş komandan cənab İlham Heydər oğlu Əliyevin dəfələrlə cəmiyyətdə ictimai nəzarətin güclənməsi çağırışını rəhbər tutaraq, **"ZƏFƏRLİ YOL 2023"** ictimai nəzarət cəmiyyəti,ölkəmizin müxtəlif rayonlarında cəmiyyətimizin marağına sərf etdiyimiz sahədə ictimai nəzarətin sürətlə inkişaf etməsinə nail olmaq məqsədi ilə rayon sədrlərini təyin edirik.Bu sədrlər,cəmiyyətimizin dəyişik bölgələrində yerləşən fəaliyyət mərkəzlərimizin ictimaiyyətə təmsilini,onların marağını və məsələlərini dəstəkləməyi hədəfləyir.

Odur ki, **"ZƏFƏRLİ YOL 2023"** ictimai nəzarət cəmiyyətinin idarə heyyitinin № 007/a nömrəli qərarına əsasən Lənkəran rayonuna Babazadə Ramiq Şaiq oğlu sədr təyin edilmişdir. Düşünürük ki,Lənkəran rayonunun sosial ictimai,iqtisadi,mədəni fəaliyyətinin,görülən işlərin daha geniş auditoriyalarda ictimailişdirilməsi qarşılıqlı marağımızdadır.
Bizim əməkdaşımızın göstərəcəyi peşəkar fəaliyyətindən razı qalacağınıza ümid edirik.
Öncədən sizə dərin təşəkkürümüzü bildiririk.

**Təsisçi:** **Ş.Quliyev**